# “Heydər Əliyev və suveren Azərbaycan”

Aprelin 14-də Baş Prokurorluq və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Qarabağ Universitetinin tərəfdaşlığı ilə bu təhsil müəssisəsində “Heydər Əliyev və suveren Azərbaycan” mövzusunda konfrans keçirilib.

Konfransda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, baş prokuror Kamran Əliyev, elm və təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, hüquqşünaslar, ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, gənc tədqiqatçılar və media təmsilçiləri iştirak ediblər.

Konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilərək önünə gül dəstələri qoyulub.

**Ardı səh. 3**




## Qarabağ Universitetində konfrans

Azərbaycan müəllimi.- 2025.- 19 aprel, №13.- S.1; 3.

# "HEYDƏR ƏLİYEV VƏ SUVEREN AZƏRBAYCAN"

## Qarabağ Universitetində konfrans keçirilib

**Əvvəli səh. 1**

Daha sonra konfrans iştirakçıları Qarabağ Universitetinin kitabxanası, kriminalistika otaqları və digər tədris avadanlıqları ilə tanış olublar. Baş Prokurorluq tərəfindən kitabxana fonduna yeni kitablar hədiyyə edilib.

Qonaqlara məlumat verilib ki, Baş Prokurorluğun dəstəyi ilə ərsəyə gəlmiş kriminalistika otağı "Hüquqşünaslıq" ixtisasının tələbələri üçün praktik təlimlərin keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu otaq tələbələrin real cinayət hadisələri ilə bağlı praktiki bacarıqlarını inkişaf etdirməyə, hüquq tətbiqi sahəsindəki biliklərini gücləndirməyə imkan verir.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb və bildirib ki, müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevə həsr olunan konfransın sözügedən universitetdə keçirilməsi böyük qürurdur. Rektor Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış Qarabağ Universitetini təhsil, tədqiqat və innovasiya mərkəzinə çevirməklə Qarabağ və Şərqi Zəngəzurda ekosistemin formalaşmasında fəal rol oynamağın əsas hədəflərdən olduğunu da konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Qarabağ Universitetinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpasından sonra yaradılan ilk universitet olduğunu xatırladıb. Növbəti illərdə Qarabağ Universitetinin 10 fakültəsinin fəaliyyət göstərəcəyini bildirən nazir əlavə edib ki, 2030-cu ilə qədər universitetin musiqi fakültəsi Şuşada, kənd təsərrüfatı fakültəsi isə Xocalıda fəaliyyətə başlayacaq.













Çıxış edən baş prokuror Kamran Əliyev tədbirin məhz Xankəndidə keçirilməsinin xüsusi önəm daşıdığını bildirib və qeyd edib ki, bu konfrans suverenliyin tam bərpasının, hüquqi dövlət quruculuğunun və qanunun aliliyinin təcəssümüdür.

Baş prokuror Kamran Əliyev Qarabağ Universitetində "Hüquqşünaslıq" ixtisasının tədrisinin başlanmasını yüksək qiymətləndirərək vurğulayıb ki, bu, regionda hüquqi şüurun formalaşdırılmasına və gələcək hüquqşünas kadrların hazırlanmasına xidmət edəcək. O əlavə edib ki, bu təşəbbüs suverenliyin bərpası ilə paralel həyata keçirilən vacib addımdır. Baş prokuror Qarabağ Universitetinin tələbələrinə dövlətçiliyin əsasları, hüquq sisteminin rolu və gənclərin bu prosesdə iştirakı barədə tövsiyələrini də verib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edərək ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində əldə olunan nailiyyətlərdən söz açıb. Prezidentin xüsusi nümayəndəsi bildirib ki, Ümummilli Lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Elçin Yusubov əlavə edib ki, Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda bu gün həyat yenidən canlanır, şəhərlər, kəndlər, qəsəbələr abadlaşır, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar.

Ardınca konfrans öz işini tərəfdaş qurumların nümayəndələrinin "Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda çıxışları əsasında davam etdirib.

Daha sonra Kamran Əliyev və Emin Əmrullayev tələbələrin suallarını cavablandırıblar.

Konfrans çərçivəsində Qarabağ Universiteti ilə ECOLEAD layihəsinə tərəfdaş olaraq qoşulmaq üçün memoranduma əlavə imzalanıb. Qeyd edilib ki, memoranduma əlavə ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə imzalanıb.

Sonda xatirə fotosu çəkdirilib.